**Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələri işçilərinin əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 dekabr tarixli 276 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri" təsdiq edilsin (əlavə olunur).[1]

2. Tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda bu Qərarın əlavəsində müəyyən edilmiş həddən aşağı olmayaraq ödənilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 20 noyabr 2000-ci il
№ 205

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 16 yanvar tarixli 10 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**
**əlavə**[2]

***Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri***

*(manatla)*

| ***Təhsil alan kontingent*** | ***Pedaqoji işçilər*** | | |
|---|---|---|---|
| | ***professor və ya elmlər doktoru*** | ***dosent və ya fəlsəfə doktoru*** | ***elmi dərəcəsi, elmi adı olmayan şəxslər*** |
| *Bütün tipdən olan ümumtəhsil və peşə məktəblərinin, gimnaziya, lisey və digər təlim-tərbiyə ocaqlarının, orta ixtisas məktəblərinin, bunlara bərabər tutulan digər təhsil müəssisələrinin uşaqları, şagirdləri, tələbələri, orta ixtisas təhsilli mütəxəssislərin ixtisasartırma kurslarının dinləyiciləri, fəhlələr* | *14,25* | *9,45* | *7,40* |
| *Xüsusi təyinatlı (hərbi, dövlət təhlükəsizliyi və s.) təhsil müəssisələrinin tələbələri, kursantları və dinləyiciləri* | *16,90* | *12,30* | *8,30* |
| *Doktorantlar, ali təhsilli rəhbər işçilərin və mütəxəssislərin ixtisasartırma kurslarının dinləyiciləri* | *20,35* | *14,30* | *9,45* |

***Qeyd.***

*1. Əməyin saathesabı ödənilməsi məbləğlərinə məzuniyyət haqqı daxildir.*

*2. Müsabiqə və baxışların münsiflər heyəti üzvlərinin və müsabiqəyə təqdim edilən işlərin resenzentlərinin əməyinin saathesabı ödənilməsi məbləğləri professor və ya elmlər doktoru üçün 16,90 manat, dosent və ya fəlsəfə doktoru üçün 12,30 manat, elmi dərəcəsi, elmi adı olmayan şəxslər üçün 8,30 manat məbləğində müəyyənləşdirilir.*

*3. Tədris məşğələlərinin aparılmasında iştirak edən plastik poza nümayişçilərinin (naturaçıların) əməyinin saathesabı ödənilməsi bir akademik saata görə geyimli naturada 10,80 manat, geyimsiz naturada isə 17,85 manat məbləğində müəyyən olunur.*

*4. Əməyin saathesabı ödənilməsi məbləğləri mülki hüquqi müqavilə əsasında işləyən şəxslərə şamil edilir.*

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.- S.4702-4703.